AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 41 (1501), 21 - 27 dekabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Azərbaycan Milli Olimpiya Komitəsinin hesabat-seçki Baş Məclisi keçirilib

### *Azərbaycan Prezidenti İlham Əliyev yenidən Milli Olimpiya Komitəsinin Prezidenti seçilib*

Dekabrın 16-da Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) onlayn formatda VIII hesabat-seçki Baş Məclisi keçirilib. Baş Məclisdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək MOK-un İcraiyyə Komitəsinin hesabat məruzəsini təqdim edib. O, bildirib ki, hesabat dövrü ərzində Azərbaycan idmanı tarixində baş verən hadisələrlə yanaşı, ümumiyyətlə, Azərbaycan xalqının və dövlətinin tarixində möhtəşəm hadisələr baş verib: "Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük müharibədə möhtəşəm qələbə qazanılıb və torpaqlarımız işğaldan azad edilib. Bu qələbədə Azərbaycan Ordusunun sıralarında döyüşən idmançılarımızın da böyük payı var. 44 günlük müharibədə şəhid olan, qazi olan idmançılarımız da az deyil. Bu müharibənin gedişatında Azərbaycan xalqı kimi, Azərbaycan idmançıları da xüsusi fəallıq göstəriblər. Baş Məclis və idman ictimaiyyəti adından cənab Prezidenti bu qələbə münasibətilə təbrik edirəm".

MOK-un vitse-rezidenti Baş Məclis iştirakçılarına məlumat verərək deyib ki, 5 illik dövrü əhatə edən hesabat kitabında Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələri, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin görüşləri, çıxışları, qəbulları, iştirak etdiyi tədbirlər, beynəlxalq yarışlar, idmançılarımızın Olimpiya oyunlarında, Olimpiya festivallarında, İslam Həmrəyliyi Oyunlarında çıxışı, Olimpiya Həmrəyliyi Fondunun proqramları, maliyyə-marketinq, informasiya və nəşriyyat məsələləri öz əksini tapıb. O, müxtəlif səviyyəli beynəlxalq yarışlarda atletlərimizin qazandıqları uğurlardan, Bakıda keçirilən beynəlxalq yarışlardan danışaraq, MOK-un hesabat dövründəki fəaliyyətini yüksək dəyərləndirib.

Hesabat məruzəsi dinlənildikdən sonra səsə qoyularaq yekdilliklə qəbul olunub. Sonra MOK-un Təftiş Komissiyasının hesabat məruzəsi dinlənilib.

Hesabat-seçki Baş Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib.

Daha sonra Çingiz Hüseynzadə, Fərid Qayıbov, Azər Əliyev, Zemfira Meftaxetdinova, Nazim Hüseynov, Namiq Abdullayev, Fərid Mansurov, Faiq Qarayev, Könül Nurullayeva, Mariana Vasileva və Ramil Hacı MOK-un İcraiyyə Komitəsinin üzvü seçiliblər.

Baş Məclisdə MOK-un Təftiş Komissiyasına üzvlərin seçkisi keçirilib. Lyudmila Şubina, Hicran Şərifov, Balakişi Qasımov, Niyaməddin Paşayev və Yaşar Bəşirov Təftiş Komissiyasına üzv seçiliblər. VIII hesabat-seçki Baş Məclisindən sonra MOK İcraiyyə Komitəsinin yeni tərkibdə ilk iclası olub. İclasda Azər Əliyev Milli Olimpiya Komitəsinin baş katibi, Çingiz Hüseynzadə, Fərid Qayıbov və Zemfira Meftaxetdinova MOK-un vitse-prezidentləri seçiliblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə İcraiyyə Komitəsinin yeni seçilmiş üzvlərini təbrik edərək, onlara uğurlar arzulayıb.

## Gənclər və idman naziri dövlət təltiflərinə layiq görülən bir qrup şəxsə mükafatları təqdim edib

Azərbaycan Respublikasının Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətləri olan mütəxəssisləri daim diqqətdə saxlayır, bu sahədə fərqlənənləri mütəmadi olaraq, fəxri adlar və digər dövlət mükafatları ilə təltif edir.

Dekabrın 20-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının akt zalında keçirilən tədbirdə gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Prezidenti İlham Əliyevin bu il imzaladığı müxtəlif sərəncamlarla təltif olunmuş bir qrup şəxsə dövlət mükafatlarını təqdim edib.

Tədbirdə əvvəlcə dövlətimizin başçısının Sərəncamına əsasən, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90 illik yubileyi münasibətilə və Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə təltif edilmiş 1 nəfərə "Şöhrət" ordeni, 1 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün müvafiq sənədi, 7 nəfərə "Tərəqqi" medalı, 8 nəfərə Əməkdar müəllim, 5 nəfərə isə Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adının vəsiqələri və döş nişanları təqdim olunub.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin müxtəlif sərəncamları ilə təltif olunmuş şəxslərə "Şöhrət" və "Şərəf" ordenləri, 3 nəfərə "Tərəqqi" medalı, 4 nəfərə isə "Dövlət qulluğunda fərqlənməyə görə" medalları təqdim edilib.

## Fərid Qayıbov bölgələrdə Olimpiya İdman komplekslərinin fəaliyyətləri ilə tanış olub

Gənclər və idman naziri Fərid Qayıbov Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi zonalarında səfərdə olub. Fərid Qayıbov səfər çərçivəsində Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, Şəki, İsmayıllı və Şamaxı Olimpiya İdman komplekslərinin, Qobustan İdman Kompleksinin fəaliyyətləri ilə tanış olub. O, müxtəlif idman növləri üzrə bölmələrin məşq proseslərini izləyib, idmançılarla görüşüb, məşqçi-müəllimlərlə fikir mübadiləsi aparıb, onların problemləri ilə maraqlanıb.

Həmçinin Qax, Zaqatala, Şəki və Qobustan Uşaq-Gənclər İdman Məktəblərinə baxış olub, mövcud vəziyyət yerində öyrənilib.

Komplekslərin fəaliyyəti ilə tanışlıq zamanı bu idman qurğularının potensialından maksimum dərəcədə yararlanmaq imkanları müzakirə edilib. Nazir komplekslərdə mövcud idman bölmələrində aktivliyin və peşəkar yanaşmanın artırılması, xüsusən də üzgüçülik hovuzlarının imkanlarından səmərəli istifadə etməklə uşaq və gənclərin bu idman növünə cəlb edilməsinin vacibliyini vurğulayıb.

Balakən və Qobustan Gənclər Evlərinin fəaliyyəti ilə tanış olan Fərid Qayıbov, klub və dərnəklərin fəaliyyəti, xidmətlərin səviyyəsi ilə də maraqlanıb. İstedadlı gənclərin yaradıcılıq uğurları barədə məlumat verilib. Həmin mərkəzlərin problemləri ilə maraqlanan nazir burada gənclərə xidmət səviyyəsinin genişləndirilməsinin önəmini qeyd edib, müvafiq tövsiyələr verib.

Görüşlərdə nazir müavinləri Mariana Vasileva, İndira Hacıyeva, Gənclərlə iş şöbəsinin müdiri Fuad Babayev, Kadr hazırlığı sektorunun baş məsləhətçisi Ramil Cabbarov və mətbuat katibi Qabil Mehdiyev də iştirak ediblər.



## *Azərbaycan və İtaliya arasında idman sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub*

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə İtaliyanın ölkəmizdəki səfiri Klaudio Taffuri ilə görüşüb.

Vitse-prezident iki ölkənin Milli Olimpiya komitələri arasında imzalanan anlaşma memorandumunu xatırladıb. Ç.Hüseynzadə Prezident İlham Əliyevin İtaliyaya ilk dövlət səfəri zamanı imzalanmış sənədin MOK ilə İtaliya Milli Olimpiya Komitəsi (CONI) arasında Olimpiya Hərəkatının inkişafını, idmanın mənəvi və etik dəyərlərinin mühafizəsini dəstəkləməyi nəzərdə tutan məqamlarından bəhs edib.

MOK-un baş katibi Azər Əliyev və marketinq idarəsinin rəhbəri Mehman Kərimov İtaliya ilə Azərbaycan arasında diplomatik əlaqələrin 30 ilinin tamam olduğu 2022-ci illə bağlı bir sıra əməkdaşlıq təkliflərini səfirə təqdim etdikdən sonra müzakirələr aparılıb.

Səfir MOK-un yenidən seçilmiş vitse-prezidenti Çingiz Hüseynzadəni və baş katib Azər Əliyevi təbrik edərək onlara işlərində uğurlar arzulayıb. Diplomat, eyni zamanda, MOK ilə İtaliya arasında bir sıra əməkdaşlıq təklifləri ətrafında fikir mübadiləsi aparılmasının əhəmiyyətini vurğulayıb.

*Bakıda mərhum qrossmeysterin xatirəsinə "Vüqar Həşimov memorialı" start götürüb* Səh. 2

Fiziki və mənəvi tərbiyə almış yeniyetmələr sağlam gələcəyin təməlidir Səh. 4

AZARKEŞİN QEYD DƏFTƏRİNDƏN... Səh. 6

Yığmamızın Millətlər Liqasındakı rəqibləri müəyyənləşdi Səh. 7




# Atıcılıq Federasiyasının hesabat-seçki konfransı keçirilib

Gənclər və İdman Nazirliyinin inzibati binasında Azərbaycan Atıcılıq Federasiyasının hesabat-seçki konfransı keçirilib. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra nazir Fərid Qayıbov çıxış edərək tədbir iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov federasiyanın son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib.

Daha sonra federasiya rəhbərliyinə yeni seçkilər keçirilib. Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov səsvermə nəticəsində Azərbaycan Atıcılıq Federasiyanın yeni prezidenti seçilib.

Konfransda, həmçinin İsmət Əliyev və Zemfira Meftaxetdinova federasiyanın vitse-prezidentləri, Ruslan Lunyov, Aynur Cəfərova, Əli Hüseynli və Rəsul Məmmədov isə İdarə Heyətinə üzv seçiliblər.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edib.

Federasiyanın yeni prezidenti Vilayət Eyvazov çıxış edərək göstərilən etimada görə təşəkkürünü bildirib. V.Eyvazov idmanın bu növünün inkişafı üçün əlindən gələni edəcəyini, bunun üçün mütəxəssislərin rəy və təkliflərinin xüsusilə diqqətə alınacağını vurğulayıb.

# Azərbaycan Milli Paralimpiya Komitəsinin və Beynəlxalq Paralimpiya Komitəsinin rəhbərləri görüşüblər

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov və Beynəlxalq Paralimpiya Komitəsinin (IPC) rəhbəri Endrü Parsons arasında görüş keçirilib. İ.Rəhimov IPC-nin prezidentinin dəvəti ilə komitənin Almaniyanın Bonn şəhərində yerləşən baş ofisinə səfər edib. IPC-nin baş ofisində keçirilən görüşdə İ.Rəhimov E.Parsonsu yenidən IPC-nin prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, onun rəhbərliyi ilə beynəlxalq Paralimpiya hərəkatının daha da inkişaf etdiyini vurğulayıb.




E.Parsons İ.Rəhimovu Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Federasiyasının vitse-prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, gələcək işlərində uğurlar arzulayıb.

Görüşdə E.Parsons bildirib ki, AMPK beynəlxalq Paralimpiya hərəkatının inkişafına böyük töhfə verir, ali qurumla daim sıx əlaqədə olur. E.Parsons Azərbaycanda Paralimpiya hərəkatının inkişafını yüksək qiymətləndirərək qeyd edib ki, Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında qazanılan yüksək nəticələr bunun əyani sübutudur.

AMPK-nın prezidenti Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə Paralimpiya hərəkatının inkişafına xüsusi diqqət göstərdiyini vurğulayıb. O, Prezident İlham Əliyevin Azərbaycanda beynəlxalq yarışların və tədbirlərin keçirilməsini həmişə dəstəklədiyini, ölkəmizdə paralimpiyaçıların iştirakı ilə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, paracüdo üzrə Qran-Pri yarışları, 2019-cu ildə Heydər Əliyev Fondu və Komitənin birgə təşkilatçılığı ilə Beynəlxalq Paralimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş "Yenilməzlər" beynəlxalq qala-təqdimatının keçirildiyini, ölkəmizin gələcəkdə də bu cür mötəbər tədbirlərə ev sahibliyi etməyə hazır olduğunu bildirib.

Komitənin Paralimpiya hərəkatının inkişafı istiqamətində gördüyü işlərdən danışan İ.Rəhimov bildirib ki, AMPK-nın bu təcrübəni digər ölkələrlə də bölüşməsi məqsədilə 2022-ci ilin mayında Bakıda "Yenilməzlər Tokiodan Parisə doğru" beynəlxalq konfransın keçirilməsi nəzərdə tutulur.

Sonra İ.Rəhimov və E.Parsons gələcək əməkdaşlıq mövzusunda geniş müzakirələr aparıblar.

Görüşün yekununda AMPK prezidenti İ.Rəhimov dəvət üçün E.Parsonsa bir daha təşəkkürünü bildirib və onu 2022-ci ilin mayında Bakıda keçiriləcək "Yenilməzlər Tokiodan Parisə doğru" beynəlxalq konfransına dəvət edib.

# Üzgüçülük Federasiyasının nümayəndə heyəti FİNA-nın konqresində

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Beynəlxalq Üzgüçülük Federasiyasının (FINA) konqresi keçirilib. Tədbirə 201 dövlətdən nümayəndə qatılıb. Azərbaycanı konqresdə də Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti Elçin Həsənov və baş katibi Fərid Bənənyarlı təmsil ediblər.

Konqres çərçivəsində FİNA-nın prezidenti Hüseyn Əl-Müsəlləm altı aylıq hesabatla çıxış edib. Ümumilikdə 2021-ci ildə görülən işlər qənaətbəxş hesab olunub.

Sonra FİNA-nın əsasnaməsində bəzi dəyişiklər barədə müzakirələr aparılıb. Müzakirələrdən sonra yeni təkliflər qəbul edilib.

Konqres çərçivəsində Azərbaycan Üzgüçülük Federasiyasının rəhbərliyi digər ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə ediblər.




# Bakıda mərhum qrossmeysterin xatirəsinə "Vüqar Həşimov memorialı" start götürüb

***Azərbaycanın mərhum qrossmeysteri Vüqar Həşimovun xatirəsinə həsr edilən yeddinci super turnirin dekabrın 18-də təntənəli açılış mərasimi olub. "Fairmont Baku" hotelində təşkil olunan yarışın açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Vüqar Həşimovun xatirəsi bir dəqiqəlik sükutla anılıb, tanınmış şahmatçının xatirəsinə həsr edilən videoçarx nümayiş olunub.***

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov açılış mərasimində çıxış edərək bu mötəbər turnirin hər il yüksək səviyyədə təşkilinin dünya şahmat ictimaiyyətinin marağına səbəb olduğunu deyib. Nazir bildirib ki, Vüqar Həşimovun xatirəsinə həsr olunan turnir təkcə Azərbaycanda deyil, bütün dünyada maraqla qarşılanır. Mərhum qrossmeyster qısa ömür yaşasa da, böyük nailiyyətlərə imza atıb. Bu gün Vüqar Həşimovun adına akademiya fəaliyyət göstərir. Həmin akademiya onun arzuları və ideyaları reallaşdırılır. Nazir bu nailiyyətlərə görə Vüqar Həşimovun ailəsinə təşəkkürünü bildirib.

Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov Bakının "Vüqar Həşimov memorialı"na ilk dəfə ev sahibliyi etdiyini bildirib. M.Məmmədov vurğulayıb ki, super turnirdə dünyanın aparıcı şahmatçıları iştirak edirlər. Bu mötəbər şahmat turniri 2020-ci ildə pandemiya səbəbindən baş tutmadı. Ancaq həmin il




Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı erməni təcavüzündən azad etdi. Hazırda işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri həyata keçirilir.

Gələcəkdə "Vüqar Həşimov memorialı"nın işğaldan azad olunan ərazilərdə keçiriləcəyinə əminliyini bildirən federasiya prezidenti qeyd edib: "Azərbaycan Prezidenti İlham Əliyev görkəmli şahmatçımız Vüqar Həşimovun xatirəsinə turnirin təşkil olunmasına ilk gündən böyük diqqət və qayğı ilə yanaşıb. Dövlətimizin başçısı İlham Əliyev hər zaman idmançıların yanında olub və şahmatçılarımız da bu qayğını daim hiss ediblər. Bu səbəbdən bütün şahmat ailəsi adından Azərbaycan Prezidentinə təşəkkürümüzü bildiririk".

Vüqar Həşimovun atası Qasım Həşimov artıq ənənəvi qaydada təşkil edilən super turnirin keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Turnirin təşkilinin Azərbaycan xalqının öz oğlunun xatirəsini yaşatmasının bariz nümunəsi olduğunu vurğulayan Q.Həşimov təşkilatçılara minnətdarlıq edərək deyib: "Əvvəlki altı turnir Şəmkirdə təşkil olunub. Bakı ilk dəfədir yarışa ev sahibliyi edir. Builki turnirdə Vişvanatan Anand, Fabiano Karuana, Sergey Karyakin kimi dünya çempionları iştirak edirlər. Bu da turnirin yüksək səviyyədə olmasından xəbər verir.

Oğlunun ideyalarından danışan Q.Həşimov mərhum qrossmeysterin yüksək insani keyfiyyətlərindən və mübarizliyindən söz açıb, iştirakçılara uğurlar arzulayıb.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov turnirdə hər il ən güclü şahmatçıların iştirakına nail olduqlarını diqqətə çatdırıb. Federasiya rəsmisi turnirin reqlamenti barədə məlumat verib.

Daha sonra yarışın püşkü atılıb.

Açılış mərasimi konsert proqramı ilə davam edib.

Konsert proqramından sonra super turnirə start verilib.

Super turnirdə ilk gedişləri Vüqar Həşimovun atası Qasım Həşimov və Avropa Şahmat İttifaqının prezidenti Zurab Azmayparaşvili ediblər.

Qeyd edək ki, sayca yeddinci dəfə təşkil olunan "Vüqar Həşimov memorialı"nda qalib adı uğrunda 8 şahmatçı - Azərbaycan təmsilçiləri Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Vüqar Əsədli, amerikalı Fabiano Karuana, Rusiya şahmatçısı Sergey Karyakin, Macarıstan idmançısı Riçard Rapport, hindistanlı Vişvanatan Anand və çexiyalı David Navara mübarizə aparırlar. Şahmatçılar turnirdə rapid və blits turnirlərində yarışırlar. Rapid yarışları 14 turdan ibarət olacaq və dekabrın 21-dək davam edəcək. Dekabrın 22-23-də isə blits yarışları keçiriləcək. Rapid yarışı 15 dəqiqə + 10 saniyə, blits turniri isə 5 dəqiqə + 3 saniyə nəzarət vaxtı ilə təşkil olunacaq.

Yarış Vüqar Həşimov Şahmat Fondunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Şahmat Federasiyasının dəstəyi, SOCAR-ın sponsorluğu ilə keçirilir. Yarışa "Fairmont Baku" hoteli ev sahibliyi edir.

Vüqar Həşimov memorialı ilk dəfə 2014-cü ildə Şəmkirdə keçirilib. Hazırkı dünya çempionu Maqnus Karlsen dörd (2014, 2015, 2018, 2019), Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov isə iki (2016, 2017) dəfə turnirin qalibi olublar.

## Atletika Federasiyasının ilin yekunlarına dair hesabat konfransı olub

Azərbaycan Atletika Federasiyasının (AAF) 2021-ci ilin yekunlarına dair hesabat konfransı keçirilib.

Federasiyanın prezidenti Çingiz Hüseynzadə tədbirdə çıxış edərək konfransın işinə uğurlar arzulayıb. Sonra 2021-ci ildə əldə olunan nailiyyətlərlə bağlı məlumat verilib.

Daha sonra müxtəlif mükafatlar təqdim edilib. Belə ki, Avropa Atletika Assosiasiyasının 2021-ci il üçün mükafatları Tofik Karayev, Bəhruz Salehli, Svetlana Quliyevaya təqdim olunub.

Hesabat konfransında 2017-2021-ci illərdə federasiyanın tədbirlərində fəal iştirakına görə Nizami İsayev (Bərdə rayonu), yarışlarda fəal hakimliyə görə Aida İsayeva, Elşən Bünyatzadə, məşqçilərin hazırlanması prosesində fərqləndiyinə görə Hakim İbrahimov, federasiyanı beynəlxalq seminarlarda uğurla təmsil etdiyinə görə Valentin Buliçev mükafatlandırılıblar.

Həmçinin hesabat dövründə federasiya ilə fəal əməkdaşlığa görə Tofiq Bəhramov adına Respublika Stadionunun direktoru Şamil Quliyev, Respublika Olimpiya Mərkəzinin direktoru Emil Quliyev və Azərbaycan Dövlət Bədən Tərbiyə və İdman Akademiyasının stadionunun direktoru Samir Quliyev təltif ediliblər.

Sonda isə ilin ən yaxşı idmançısı, məşqçisi və hakimləri müəyyənləşib. İlin ən yaxşı kişi idmançısı Aleksis Kopello seçilib. İlin ən yaxşı qadın idmançısı mükafatı Lamiyə Vəliyevaya verilib. Tofiq Əliyev ən yaxşı məşqçi, Emil Şahtaxtinski isə ən yaxşı hakim seçiliblər.

## Basketbol Federasiyasında yeni təyinat




Azərbaycan Basketbol Federasiyasının hesabat-seçki konfransı keçirilib. Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən tədbirdə nazir Fərid Qayıbov çıxış edərək konfrans iştirakçılarını salamlayıb, onlara uğurlar arzulayıb.

Sonra Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibov çıxış edərək federasiyanın son illərdəki fəaliyyəti barədə məlumat verib və yeni seçiləcək heyətə uğurlar arzulayıb.

Daha sonra federasiya rəhbərliyinə yeni seçki keçirilib. Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev Azərbaycan Basketbol Federasiyanın yeni prezidenti seçilib.

Konfransda, həmçinin Simuzər Feyzullayeva, Vilayət Vəliyev, Bəxtiyar Aslanbəyli və Elnur Əliyev Azərbaycan Basketbol Federasiyası Rəyasət Heyətinə üzv seçiliblər.

Tədbirin sonunda Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək federasiyanın yeni rəhbərliyinə uğurlar arzulayıb.

## *Paris Olimpiadasının açılış mərasimi Sena çayında olacaq*

Paris-2024 Yay Olimpiya Oyunlarının açılış mərasiminin keçiriləcəyi yer dəqiqləşib. Tədbir stadionda deyil, Sena çayında təşkil olunacaq. Komandaların nümayəndə heyətləri 160 qayığa yerləşdiriləcək. Bu qayıqlar "Auqsterlits" körpüsündən "Yens" körpüsünədək üzəcək. Mərasimi 600 mindən az olmayan sayda tamaşaçı izləyə biləcək.

Qeyd edək ki, açılış mərasimi 2024-cü il iyulun 26-da olacaq. Paris-2024 avqustun 11-dək davam edəcək. Fransa Yay Olimpiya Oyunlarını üçüncü dəfə qəbul edəcək. Ölkə əvvəllər 1900-cü və 1924-cü illərdə Olimpiadanı təşkil edib.

## Velosiped İdmanı Federasiyasında britaniyalı professorla görüş

Böyük Britaniyanın UCL Universitetinin professoru, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ASAPES) magistrantlar və doktorantlarının elmi rəhbəri Maykl Pol Luzmor dekabrın 16-da Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVIF) qonağı olub. İdman tibb sahəsi üzrə dünyanın tanınmış mütəxəssislərindən sayılan britaniyalı qonaq Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev və məşqçilərlə görüşərək fikir mübadiləsi aparıb.



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru, AzVİF-in vitse-prezidenti Fuad Hacıyev idmanda tibbi məsələlərin olduqca böyük önəm daşıdığını deyərək nəticələrin yüksəlməsi üçün bu sahəyə xüsusi diqqət yetirməyin vacibliyindən danışıb. Maykl Pol Luzmor idmançıların yüksək nəticələr qazanabilmələri üçün tibbi personalla məşqçilərin qarşılıqlı fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə təcrübəsini bölüşüb.

Federasiyanın prezidenti M.Quliyev səmimi görüşə görə Maykl Pol Luzmora məşqçi və idmançı heyəti adından təşəkkürünü bildirərək, bu cür görüşlərin və təcrübə mübadiləsinin yüksək nəticələrin qazanılmasına böyük töhfə verəcəyini deyib. Görüşdə britaniyalı qonaq idmançı və məşqçi heyətini maraqlandıran sualları cavablandırıb.

## Vətən müharibəsi qəhrəmanlarının şərəfinə açıq birincilik keçirilib

***Xətai rayon 260 nömrəli tam orta məktəbdə badminton üzrə yeniyetmə və gənclər arasında Vətən müharibəsi qəhrəmanlarının şərəfinə həsr olunmuş Xətai rayon açıq birinciliyi keçirilib.***

Birinciliyin açılış mərasimində Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının sədri Vüqar Rəhimzadə, Xətai Rayon İcra Hakimiyyətinin vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Anar Məmmədov, Azərbaycan Badminton Federasiyasının İdarə Heyətinin sədr müavinləri Aynur Səmədova və Emin Maqsudov, Federasiyanın İdarə Heyətinin üzvü Mirzə Orucov iştirak ediblər.

Birinciliyin nəticələrinə görə 260 nömrəli tam orta məktəbin komandası birinci yeri, 254 nömrəli tam orta məktəbin komandası ikinci yeri, 48 nömrəli tam orta məktəbin komandası üçüncü yeri tutublar. Qaliblər diplom, kubok və medallarla təltif olunublar.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## *AMADA "Parlaq gələcək üçün narkotikə yox" mövzusunda tədbir keçirib*

***Dekabrın 20-də Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) idmanda narkotik vasitələrlə mübarizəyə həsr olunmuş "Parlaq gələcək üçün narkotikə yox" mövzusunda tədbir keçirib.***



Tədbirdə AMADA ilə yanaşı, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası, Baş Narkotiklərlə Mübarizə İdarəsi və Dövlət Gömrük Komitəsinin nümayəndələri də iştirak edib.

Tədbirdə əvvəlcə idmanda narkotik vasitələrdən istifadə halları və onun fəsadlarından bəhs edən videoçarx nümayiş etdirilib. Daha sonra çıxış edən AMADA-nın direktoru Şəfəq Hüseynli problemin aktuallığına diqqət çəkərək AMADA-nın bu sahədə gördüyü işlərlə bağlı məlumat verib.

Bildirib ki, Azərbaycan Prezidentinin 22 dekabr 2020-ci il tarixli Sərəncamı ilə AMADA-nın "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icraçı qurumları siyahısına əlavə edilməsindən sonra bu istiqamətlə fəaliyyət daha da genişləndirilib. Təkcə bu il ərzində antinarkotik təbliğatı və maarifləndirməsi məqsədi ilə idman federasiyaları, idmançılar və onların köməkçi heyəti üçün 8 vebinar, 25 seminar və 1 tədbir keçirilib. Bundan əlavə, keçirilən çoxsaylı digər antdopinq maarifləndirmə tədbirlərində narkotiklə mübarizə məsələsinə xüsusi diqqət yetirilib.

Ş.Hüseynlinin sözlərinə görə, AMADA antinarkotik fəaliyyətini Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası ilə koordinasiyalı şəkildə qurub. Dövlət Komissiyasının təşkil etdiyi tədbirlərdə də AMADA əməkdaşları aktiv iştirak edib.

Şəfəq Hüseynli bildirib ki, idmanda narkotik vasitələrdən istifadə dünya da aktual problemdir. Narkotik vasitələr Ümumdünya Antidopinq Agentliyi tərəfindən qadağan edilmiş maddələr siyahısına daxil edilib. Çoxlu sayda idmançı məhz narkotik vasitələrdən istifadə etdiyinə görə sanksiyalara məruz qalıb. Azərbaycanda da belə hallara rast gəlinir. AMADA-nın 5 illik fəaliyyəti dövründə 7 belə hal aşkar edilib. Bu isə test nümunələri əsasında aşkarlanmış antidopinq qayda pozuntularının təxminən 11 faizini təşkil edir.

AMADA-nın direktoru deyib ki, Azərbaycanda bu sahədə vəziyyəti ətraflı təhlil etmək məqsədi ilə qurum tərəfindən böyük bir tədqiqat layihəsi icra edilib. O, tədqiqatın nəticələri barədə ətraflı təqdimat edib və bildirib ki, nəticələrinin təhlili bu istiqamətdə fəaliyyəti daha da təkmilləşdirmək, xüsusi ilə də maarifləndirmə tədbirlərində prioritetləri müəyyənləşdirmək və idman sahəsində narkotiklə mübarizə işini daha effektiv təşkil etməyə imkan verir.

Daha sonra isə Gənclər və İdman Nazirliyinin sektor müdiri Nərmin Aslanbəyova Narkotiklə mübarizə sahəsində gənclərlə bağlı görülən işlər barədə, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupunun rəhbər müavini Tanrıverdi Aydınovun Dövlət Komissiyasının fəaliyyəti barədə, Milli QHT Forumunun prezidenti Rauf Zeyninin narkotiklə mübarizədə ictimaiyyətin rolu barədə, DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşı Nadir Məmmədovun narkotik maddələrlə mübarizə sahəsində görülən işlər barədə, Dövlət Gömrük Komitəsinin əməkdaşı Səttar Fətəliyevin narkotik maddələrin ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində görülən tədbirlər barədə çıxış ediblər.

## Boksçumuz Serbiyada medalsız qaldı

Serbiyanın Loznitsa şəhərində boks üzrə beynəlxalq turnir keçirilib. 18 ölkədən 150-dən artıq boksçunun qüvvəsini sınadığı yarışda Azərbaycan bir idmançı ilə mübarizə aparıb. Komandamızı yarışda 73 kq çəki dərəcəsində Mirşərif Kazımzadə (75 kq) təmsil edib.

Boksçumuz ilk qarşılaşmasında moldovalı Vlad Qavriluçla qarşılaşıb. Döyüş təmsilçimizin 2:1 hesablı qələbəsi



ilə başa çatıb. O, dörddəbir finalda serbiyalı Sandro Poletanla üz-üzə gəlib. Təəssüf ki, boksçumuz bu dəfə rinqdən qalib ayrıla bilməyib və görüş rəqibin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da, təmsilçimiz yarışda mübarizəni dayandırıb.

## Yeddinci dünya çempionatında beşinci çempionluq

Moskvada pouerliftinqin WRPF/WEPF versiyası üzrə yeddinci dünya çempionatı keçirilib. Yarışda 32 ölkədən 3 minə yaxın idmançı mübarizə aparıb. Turnirdə "benç press" hərəkətində ölkəmizi təmsil edən Əməkdar idman ustası Zaur Cəfərov (110 kq) 237,5 kiloqram nəticə ilə beşqat dünya çempionu olub.

Qeyd edək ki, bu nəticə ilə o, həm də dünya rekorduna imza atıb.

**İdmançılar narkomaniyaya qarşı**

İnsanın fiziki və mənəvi tərbiyəsinə mənfi təsir edən hər bir amil pis vərdiş hesab olunur. Bu ilk addımda elə də ciddi görünmür. Lakin mütəmadi hal aldıqda artıq vərdişə çevrilir. Bu gün gənc nəslin tərbiyəsi əsas prioritetlərdən biridir. Valideyinlər çalışır ki, cəmiyyətə sağlam bir övlad bəxş etsinlər. Həm fiziki və həm də mənəvi tərbəyə almış bir yeniyetmə sabaha olan ümid çırağıdır. Çalışmaq lazımdır ki, bu çıraq adi diqqətsizlikdən vaxtından əvvəl közərib, sönməsin. Əsrin bəlası ola narkotik maddələr neçə-neçə ailəni məhv edib, arzuları puça çıxarıb. Bəs insanlar billə-billə ki, narkomaniyaya qurşanmaq onları məhvə aparır nə üçün bu yoldan çəkinmirlər? "İdmançılar narkomaniyaya qarşı" rubrikası altında öz səhiflərində silsilə yazılar çap edən "Olimpiya dünyası" qəzeti yenə də bu mövzuya müraciət edib. Bu sayımızda insanların erkən yaşda narkomaniyaya meyl etməsinin səbəblərini araşdırmağa çalışdıq. Bu problemin qismən də olsa həlli üçün ayrı-ayrı mütəxəssislərin fikirlərindən istifadə etdik.

rast gəlinir. Bu tipli insanlar depressiyaya meyilli və stresə qarşı qeyri-sabit olurlar. Əgər belə bir insan narkotikdən istifadə edərsə, böyük ehtimalla onda asılılıq yaranacaq.

"Narkomanlığa aparan səbəblərdən biri də psixi pozğunluqla əlaqələndirilir. Fiziki cəhətdən sağlam insan qismən narkotik istifadəsinin təsirini hiss etmir və asılılıq məngənəsində sıxılmır. Moskvada yerləşən narkologiya və elmi-təcrübə klinikasının professoru Yevgeniy Bryun bu barədə maraqlı fikirlər bildirib. O, deyir: "Pasientlərimdən biri deyirdi ki, narkotiki başa düşmək üçün yaxşı psixopat olmaq lazımdır".

Narkotik aludəçisi kiçik miqdarda da olsa bu qeyri-hormonları beynində necə daşıyır və bu da öz növbəsində psixi pozğunluğa səbəb ola bilər. Psixi pozğunluğun digər səbəbləri də var. Burada təkcə psixi pozğunluqdan



Narkotik aludəçisi olan yeniyetmədən ətrafdakılar çox gec - aqressiya baş verdikdə, yalanlar və uyğun olmayan hərəkətlər ilə qarşılaşdıqda xəbər tutur. Valideynlər bu vaxt həyəcan təbili çalmağı, necə müalicə etmək və xəstəliklə mübarizə aparmaqla maraqlanırlar.

zəhərləyəcəyik. Buna görə də özünüzdə inkişaf etdirməyiniz lazım olan ilk şey, özünə nəzarətdir. Bu vəziyyətdə köməyə idman gəlir. Məlum olduğuna görə idman məşqləri özünə idarəetməni gücləndirir. Bundan əlavə öz tənbəlliyin üzərində qələbə, müntəzəm məşq özünü idarə etməyi və məsuliyyəti öyrədir.

# Fiziki və mənəvi tərbiyə almış yeniyetmələr sağlam gələcəyin təməlidir

Narkomaniya ən ciddi problemlərdən biridir. Bu problem bizim uşaqlarımızın həyatına nüfuz etmək iqtidarındadır. İnsanlar necə olur ki, narkomaniyaya meyl edirlər?

## Genetikadan qaynaqlanan səbəblər

Aparılan müşahidələrə görə insanlar arasında narkomaniyaya meylliyin bir səbəbi də genetikadan qaynaqlanır. Bunu yoxlamaq üçün alimlər



təcrübə zamanı insan orqanizmini tamamilə kodlaşdırırlar. Eyni qayda ilə narkotikanın miqdarını və əsas beyində mövcud olan xüsusi kimyəvi maddələri müəyyən edirlər. Bura serotonin, dofamin, adrenalin, noradrenalin və digərləri daxildir. Müəyyən edilib ki, beyinin işləməsi, hisslərimiz, emosiyalarımız, xarakterimiz məhz neyrohormonların miqdarından asılıdır. Hətta bəzən elə olur ki, insan kiçik miqdarlı serotonin neyrohormonu ilə doğulur. Belə hallarda onun depresiyaya düşmə ehtimalı daha yüksəkdir. Həmçinin narkotik və digər asılılığı olan aludəçilərdə də kiçik ölçüdə noradrenalin, adrenalin və serotonina deyil, şizofreniyadan söhbət gedir. Bu məqam narkomanı depresiyaya, psixopatlığa və nevrotik reaksiyaya gətirib çıxarır. Rusiyalı tanınmış psixiatr Yevgeniy Bryun illərdən bəri apardağı təcrübələrə əsasən bu qənaətə gəlib ki, narkotik ilk qəbul zamanı depressiyanı aradan qaldırır, ünsiyyətcilliyi artırır, qavrayışı yaxşılaşdırır və həyata baxışı gücləndirir. İnsan rahat yaşamağa başlayır. Daha sonra narkotik əvvəlki təsirini dəyişərək, əks təsirlər göstərməyə başlayır və fiziki pozğunluğa gətirib çıxarır. Zaman keçdikcə orqanizm daha böyük doza tələb etməyə başlayır."

## Yeniyetmələrdə psixoloji pozğunluq

Qeyd olunduğu kimi, psixoloji pozğunluq yeniyetmələrin də narkotik aludəçisi olması ilə nəticələnə bilər. Bu hallar demək olar ki, daha erkən yaşda başlayır. Hətta ana bətnindən, erkən doğuş zamanı və ya doğuşda baş nahiyəsindən aldığı zədə buna səbəb ola bilər. Ən vacib səbəb kimi kiçik yaşlarında nevroloji pozuntunu göstərmək olar. Bu körpənin beyin təzyiqinin yüksək olmasından əmələ gəlir. Digər səbəb isə psixoloji stress və şəxsi xarakterdə olan problemlər əsaslandırılır.

Əgər valideyin övladlarında narkotik asılılığın inkişafı, bu və ya digər riskli faktorlar aşkar edirsə, bunu vaxtında nəzarətə götürməlidir. İlk olaraq psixoterapevtə müraciət olunmalıdır.

Gənclik həvəsi yeniyetməni yeni duyğular axtarmağa sövq edir. Cəmiyyətə və yaşıdlarıyla ayaqlaşaraq, narkotik də daxil olmaqla, qadağan olunmuş maraqlara meyl edir. Ani zəiflik tədricən asılılığa çevrilir. Psixo-emosional vəziyyət tədricən idarəolunmaz vəziyyətə gətirib çıxarır.

Davranışdakı dəyişikliklər yeniyetmənin narkotik istifadəçisi olduğunu göstərmir. Ola bilsin ki, yeniyetmənin dünyaya münasibəti yetkinlik dövründən təsirlənir. O, yaxınlarına qarşı küskün olur, onları dinləmir, öz qaydaları ilə yaşayır. Bu yaşda uşaq pis əhatənin təsiri altına düşməkdən, asanlıqla əldə edilə bilən yüksək dozalı həzzə boyun əyməkdən çəkinmir. Təəssüflər olsun ki, böyüklər kiçik nəslin özünü qəribə aparmasına və psixo-emosional hərəkətlərinə əhəmiyyət vermirlər. Narkotik istifadə qeyri-müntəzəm olarsa, bu vəziyyətdən qurtulmaq mümkündür. Belə vəziyyətdə həkimlər orqanizmdə narkotikin olub-olmadığını müəyyən edə bilirlər.

## Sağlam bədən və ruhu olan insanın həyatında narkotikə yer yoxdur

Məcazi mənada desək, insan gəmi kimidir. Onu necə yükləyəcəyinə hər kəs özü qərar verir. Hər birimiz bu həyatda inkişaf edib, uğur əldə etmək

İdman uzun illərdir ki, fədakarlıq ənənəsi nümayiş etdirərək, narkomaniyaya qarşı mübarizədə fəal iştirak edir. Bu bir faktdır ki, idmanla məşğul olmaq pis vərdişlərə asılılıqla mübarizə aparmağa effektiv kömək edir. Necə deyərlər, sağlam bədən və ruhu olan insanın həyatında narkotikə yer yoxdur. Bu və digər xoşagəlməz asılılıqlarla mübarizəyə yönəltmənin bir çox yolları mövcuddur. İdmanla məşğul olmaq asılılıq arasında əsl alternativdir. Fəal gənclər pis vərdişlərin təsirinə daha az həssasdırlar. Müxtəlif formada idman növləri mövcuddur ki, onsuz həyatın dolğunluğu mümkün deyil.

Bu məqamda Maksuell Molçun "Psixokibernetika" kitabında səslənən bir fikirə diqqətə yetirmək yerinə düşər. Kitabda qeyd edilir ki, insanda vərdiş 21 günə formalaşır. Sonradan bu ideya geniş müzakirə obyektinə çevrildi. Psixoloqlar, şəxsi inkişaf ekspertləri və digər insanlar hər bir kəs bu düşüncəyə inanmağa başladı. Lakin tədqiqatlar göstərir ki, hər hansı bir vərdişə yiyələnmək üçün təqribən 18-254 gün vaxt tələb olunur. Məsələn, idmanla məşğul olmaq vərdişi altı həftəyə formalaşır. Niyə biz bu müddət ərzində pis vərdişlər əvəzinə yeni



istəyirik. Əgər biz özümüzü alkoqol, nikotin, narkotik, həddindən artıq qidalanma, düzgün olmayan fikirlər və emosiyalarla yükləyiriksə, nəinki cismimizi, həmçinin qəlbimizi belə

faydalı məşğuliyyətlərə meyl etməyək? Unutmaq olmaz ki, yeni vərdiş formalaşdırmaq üçün insana istək və güclü iradə lazımdır.

*Hazırladı:*
*Anar Əhmədov*

## Məşhurlar narkomaniya ilə bağlı nə düşünürlər?

"Yeniyetmələrə bir məsləhətim var. Narkotikdən deyil, idmandan zövq alın. Əgər sizin yaşadığınız ərazidə idman qurğusu yoxdursa, bu sizin təqsiriniz deyil"

* * *

Bir dəfə bir məktəbin yanından keçərkən gözüm bir cədvələ sataşdı: "Bizim məktəbdə nə narkotik var, nə də ki, silah". Növbəti gün digər məktəbin yanından keçəndə belə bir cədvəl görmədim. Sizcə mən ikinci gördüyüm məktəb barəsində nə düşünməliyəm?"

*Corc Karlin*
*(Amerikalı aktyor, ssenarist)*

"Basketbol meydançası yeganə yerdir ki, mən bütün sıxıntılardan məhz orada uzaq oluram. Mənə bunun üçün heç bir narkotik kömək edə bilməz"

*Beron Devis*
*(Peşəkar basketbolçu)*

"Uşaqlar, çəkməyin, içməyin, narkotikdən uzaq olun. Özünüzə qəsd etməyin. Nə olursa, mənə olsun. Siz bizim gələcəyimizsiniz"

*Eminem*
*(Amerikalı reper)*

"İnsanın xarici görünüşü onun həyat tərzindən xəbər verir. Mən heç bir zərərli vərdişin aludəçisi olmamışam. Zahiri görkəmimdən hiss olunmur?"

*Helli Berri*
*("Oskar" mükafatı laureatı)*

"Mən uşaq vaxtı yemək üçün pul tapa bilmirdim. Sizcə həmin vaxt narkotiki haradan və necə əldə edə bilərdim?"

*Bek Hensen*
*("Qremmi" mükafatı lauəratı)*

"Narkomaniya bir ömür boyu ölüm hissi ilə yaşamaqdır"

*Fransua Moriak (ədəbiyyat sahəsi üzrə Nobel mükafatı laureatı)*

"Narkotikin köməyi ilə hədsiz zövq ala bilərsiniz. Amma həmin yaşadıqlarınızı sonradan xatırlaya bilməzsiniz"

*Erik Bern (psixoloq)*

"Bütün narkotiklər əbəs yerə xərclənən vaxt itkisidir. Onlar sizin yaddaşınızı məhv edir, arzularınızın üzərindən silinməz xətt çəkir, həyat eşqini qaranlığa sürükləyir"

*Kurt Kobein*
*("Nirvana" qrupunun üzvü)*

## Elmar Babanlı İBSA-nın cüdo üzrə yeni idarə heyətində yer alıb

Beynəlxalq Görmə Məhdudiyyətli Şəxslərin İdman Assosiasiyasının (IBSA) cüdo üzrə idarə heyətinin yeni tərkibi təsdiqlənib. Azərbaycan Milli Paralimpiya Komitəsinin cüdo idman növü üzrə nailiyyətlərini, Asiya və Avropa regionu üzrə nüfuzunu nəzərə alaraq, yeni heyətdə Avropa üzrə kordinator vəzifəsi "Neftçi" idman klubunun baş meneceri Elmar Babanlıya həvalə edilib.

İBSA-nın vitse-prezidenti İlqar Rəhimov cüdo komitəsinin yeni tərkibinə məktub ünvanlayaraq uğurlar arzulayıb və E.Babanlıya göstərilmiş etimada görə təşəkkürünü bildirib.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi yüksək diqqət və qayğının təzahürü olaraq ölkəmizin idman xadimləri beynəlxalq təşkilatların rəhbər heyətlərində təmsil olunur, idmanın inkişafında mühüm rol oynayırlar.

## Voleybol üzrə Azərbaycan çempionatlarında yeni mövsümə start verildi

*Voleybol üzrə qadınlar və kişilər arasında Azərbaycan çempionatlarında 2021/22 mövsümünün açılış mərasimi keçirilib. "Murov" voleybol klubunun Biləcəridə yerləşən idman zalında təşkil edilən tədbirdə Azərbaycan Voleybol Federasiyasının prezidenti Cavid Qurbanov, I vitse-prezident Faiq Qarayev və digər rəsmi qonaqlar iştirak ediblər.*




Əvvəlcə Cavid Qurbanov iştirakçıları salamlayıb və yarışda iştirak edəcək komandalara uğurlar arzulayıb. O vurğulayıb ki, koronavirus pandemiyası səbəbindən ölkə çempionatında fasilə yaranmışdı. Buna baxmaraq bu gün artıq yeni voleybol mövsümünə start verilir. 44 günlük Vətən Müharibəsində Azərbaycanın zəfərindən söz açan federasiya prezidenti oradakı quruculuq işlərindən də danışıb. O, voleybolun ölkəmizdə daha da kütləviləşəcəyinə, həmçinin yeni inkişaf yoluna qədəm qoyacağından və yenidən beynəlxalq arenalarda yığmalarımızın öz sözünü deyəcəyinə inandığını qeyd edib. Cavid Qurbanov vurğulayıb ki, Azərbaycan voleybolu əvvəlki səviyyəsini tezliklə bərpa edəcək.

Açılış mərasimində çıxış edən Faiq Qarayev voleybolun ölkəmizdə sevilməsini xüsusi vurğulayıb. Onun sözlərinə görə, koronavirus pandemiyası idmanın bu növünü bir qədər geri salsa da, tezliklə problemlər aradan qaldırılacaq. Faiq Qarayev bu dəfə klubların gənclərə yer verəcəyini söyləyib. Onun sözlərinə görə növbəti mövsümdə daha təcrübəli oyunçular gücləri sınayacaqlar. F.Qarayev bildirib ki, yeni nəsil oyunçuların yetişməsi üçün əlindən gələni əsirgəməyəcək.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çempionat açıq elan olunub.

Çempionata qadınlar arasında keçirilən Super Liqa yarışlarında mübarizə aparan "Abşeron" və "Murov" komandalarının oyunu ilə start verilib. Abşeron klubu ilk matçda 3:0 (25:8, 25:23, 26:24) hesabı ilə qalib gəlib.

Günün ikinci matçı kişilər arasında keçirilən Yüksək Liqada çıxış edən MOİK - "Neftçi" komandalarının qarşılaşması olub. Görüş 3:1 (25:19, 26:28, 25:23, 25:16) hesabı ilə "hərbçilər"in qələbəsi ilə sona çatıb.

Qeyd edək ki, qadınlar arasında keçirilən Super Liqada "Murov", "Abşeron", "Azerreyl" və UNEC çempion adı uğrunda mübarizə aparacaq. Kişilər arasında Yüksək Liqada isə MOİK, "Neftçi" "Murov", "Exspress" və "Sərhədçi" qüvvəsini sınayacaq.

Qadın voleybolçuların yarışı 6, kişilərin mübarizəsi 4 dövrədən ibarət olacaq. Əgər yekunda xallar bərabər olarsa, çempion qələbə sayına əsasən elan ediləcək.

## Beynəlxalq Həvəskar Boks Assosiasiyasının adı dəyişdirildi

Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AIBA) adı dəyişdirilib. Bu barədə qərarı qurumun onlayn şəkildə təşkil olunan növbədənkənar konqresi qəbul edib. Uzun illər AİBA kimi fəaliyyət göstərən təşkilatın adı bundan sonra İBA (Beynəlxalq Boks Assosiasiyası) adlandırılacaq. Bu qərar səsvermədə yekdilliklə qəbul olunub. Həmçinin qərara alınıb ki, qurumun növbəti konqresləri hər il təşkil edilsin.

IBA üç ölkənin üzvlüyünü müvəqqəti dayandırıb. Bunlar Sent-Vinsent və Qrenadin, Vanuatu, Sent-Kitts və Nevisdir.

IBA
INTERNATIONAL BOXING ASSOCIATION

## Çövkən üzrə turnir davam edir

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə çövkən milli atüstü oyunu üzrə "Prezident Kuboku" turniri davam edir. Səkkizinci dəfə təşkil olunan turnirdə bu dəfə yalnız DNT təhlili vasitəsilə valideyn mənsubiyyəti müəyyən olunmuş milli cins atlardan istifadəyə icazə verilir. Bu şərtlərə əməl edən altı komandanın iştirakı ilə keçirilən yarışlarda ümumilikdə 10 qarşılaşma oynanılacaq.

Püşkatmanın nəticələrinə əsasən, üç güc səbətindən eyni reytingə sahib olan komandalar iki qrupa ayrılıb. A qrupunda "Sərhədçi", "Buta Qolden" və "Köhlən", B qrupunda isə "Polad", "Murad" və "Omar" komandaları yer alıblar.

Dekabrın 22-dən 24-dək turnirin yarımfinal və final mərhələləri təşkil olunacaq.



Dekabrın 18-dən 20-dək Bakı Dövlət Cıdır Meydanında turnirin qrup oyunları keçirilib.

Turnirin final oyunu Binə Atçılıq Mərkəzində açıq havada və tamaşaçıların iştirakı olmadan keçiriləcək.

## Faiq Qarayev: ""Azerreyl" bir markadır"

Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti Faiq Qarayev "Azerreyl" klubunun baş məşqçisi təyin olunub. Bu barədə təcrübəli mütəxəssis voleybol üzrə ölkə çempionatlarının açılış mərasimində açıqlama verib. F.Qarayev bundan sonra sözügedən kluba rəhbərlik edəcəyini bildirib: "Bu komanda Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. "Azerreyl" bir markadır. Cavid Qurbanovla bu məsələni müzakirə etdik. Komandanın bünövrəsi qurulur. Klubun avrokuboklarda oynamasını istəyirik. Voleybol Azərbaycanda sevilən idman növlərindən biridir. Son iki ildə pandemiya şəraitində baş verən çətinliklər, digər tərəfdən klubların bağlanması voleybolun inkişafına təsirini göstərib".

Bu günlərdə Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinə üzv seçildiyini bildirən F.Qarayev bunu, Azərbaycan Voleybol Federasiyasına verilən böyük önəmin bariz nümunəsi kimi dəyərləndirib. O, qeyd edib ki, yenidən "Azerreyl" klubuna rəhbərlik edəcək: "Əminəm ki, birgə səyimizlə Azərbaycan voleybolunu inkişaf etdirəcəyik. Kifayət qədər gənc və perspektivli oyunçular var. Komandaların gündə 4-5 saat məşq etməsi üçün onlara şərait yaradılmalıdır. Federasiya hazırda bu məsələlərin həlli ilə bağlı çalışır. "Murov" klubunun Biləcəridəki idman zalı təmir olunub. Digər tərəfdən federasiyanın zalı, eyni zamanda "Sərhədçi" klubunun bazasında məşqlər üçün hər şərait yaradılıb. Artıq voleybolçuların məşqləri üçün dörd zal hazırdır".

F.Qarayev bağlanmış voleybol klublarının yenidən fəaliyyətə başlamasını istədiklərini bildirib: "Gələn il çempionatlarda 8 kişi və 8 qadın komandasını görmək istəyirik. Bağlanmış klubların yenidən fəaliyyətə başlaması voleybolun inkişafına töhfə verər. Potensallı voleybolçular var və onları klublara cəlb etməliyik. Federasiya bu məsələlərlə məşğuldur. Gələn il bir qadın və bir kişi komandasını avrokuboklarda çıxış etməsini planlaşdırırıq".

## *Stolüstü tennisçimiz beynəlxalq turnirdə mübarizə aparıb*

Rumıniyanın Buzau şəhərində stolüstü tennis üzrə "Eurotalents Development Camp U-13 IV" 2021 təlim-məşq toplanışı və turniri keçirilib. Yığma komandanın məşqçisi Ramil Cəfərovun rəhbərliyi altında perspektivli idmançı Adil Əhmədzadə turnirdə iştirak edib. Təmsilçimiz yarışda uğurla çıxış edərək 12 seçilmiş idmançı arasında 6-cı yerə layiq görülüb.

Qeyd edək ki, idmançımız bu layihənin əvvəlki mərhələlərində də uğurlu iştirak edib.

## "Sərhədçi" klubuna yeni prezident təyin edilib

Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov yeni vəzifəyə təyin olunub. F.Umudov bundan sonra kişilərdən ibarət "Sərhədçi" voleybol klubunun rəhbəri olacaq.

Qeyd edək ki, "Sərhədçi" voleybol klubu bu günlərdə start götürən Azərbaycan çempionatında iştirak edir.

## Bakıda keçiriləcək "Böyük dəbilqə" turnirinin tarixi dəqiqləşdi

Gələn il Bakıda təşkil olunacaq cüdo üzrə "Böyük dəbilqə" turnirinin vaxtı dəqiqləşib. Yarış noyabrın 4-6-da Zəfər Günü ərəfəsində təşkil olunacaq.

Qeyd edək ki, bu ilki "Böyük dəbilqə" turniri noyabrın 5-7-də Heydər Əliyev adına İdman Sarayında keçirilmişdi.



## Yeniyetmə qılıncoynadanlar Bakı birinciliyində güclərini sınayıblar

Yeniyetmə qılıncoynadanlar arasında Bakı birinciliyinə yekun vurulub. Azərbaycan Texniki Universitetinin İdman Sarayında keçirilən turnirdə sablya, şpaqa və rapira üzrə 2005-2009-cu il təvəllüdlü oğlan və qızlar arasında qaliblər müəyyənləşib.

Belə ki, sablya üzrə oğlanlar arasında Ayxan Xasıyev, qızlar arasında Fidan Quliyeva birinci yeri tutublar. Şpaqa üzrə Raul Aruslanov oğlanlar, Nazilə Rəhimova isə qızların yarışında qalib gəliblər. Rapira üzrə keçirilən turnirdə Məhəmməd Nuriyev oğlanlar arasında fəxri kürsünün ən yüksək pilləsində yer alıb, qızların yarışında isə Kamilla Məmmədova birinci yeri əldə edib.

Azərbaycan Qılıncoynatma Federasiyası ilə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən turnirin mükafatçıları diplom və medallarla təltif olunublar.




## "Təhsil" RİM-in güləşçiləri Türkiyədə uğur qazanıblar

İstanbulda sərbəst və yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib. "Təhsil" Respublika İdman Mərkəzinin yunan-Roma güləşi üzrə yığma komandası yarışda uğurla çıxış edib. Belə ki, komandanın tərkibində çıxış edən Cavidan Nəhmətov (65 kq) bütün rəqiblərini məğlub edərək, qızıl medal qazanıb.

Əli Əlbəndov (62 kq), İslam Rüstəmli (85 kq) ikinci, Rəvan Sarızadə (48 kq), Arif Nemətov (52 kq), Habil Səmədov (52 kq), Nihad Bədəlov (62 kq), Elxan İsayev (68 kq), Vaqif Şahverdiyev (76 kq) və Namiq Əhmədov (97 kq) üçüncü yeri tutublar.

Futbolla bağlı düşüncələr

# AZARKEŞİN QEYD DƏFTƏRİNDƏN...



Mobil İSMAYILOV

*(futbol motivləri)*

Futbol aləmi də bizim dünyamızın içindədir. Dünyamızda hansı proseslər baş verirsə, əslində elə futbol aləmində də belədir. Elə insan var gözləri ətrafı dərhal və çox iti görür, eləsi var duyğu bilmək qabiliyyəti, hissiyatı güclüdür, insan da var ki, həmişə düzgün qərar qəbul etməyi bacarır, hazırcavab olur və sairə. Futbolda da belədir. Eləsi var sürətlə qaçır, futbolçu var ki, nisbətən ləngdir, amma texnikalıdır. Başla yaxşı oynayan futbolçunun bir də görürsən zərbələri dəqiq olmur. Eləsi var bütün oyun ərzində yorulmur. Futbolçu var ki, fürsəti qaçırmır. Ulduz futbolçu olmasına baxmayaraq, şanslardan yararlanmayan da var. Eləsi var güclü zərbələrə malikdir və yaxud əksinə. Axı, futbolçu da, hakim də insandır. Deməli, onlar da səhvlərdən, uğursuzluqlardan sığortalanmayıblar.

## Bəxt və bəxtsizlik, yoxsa təsadüf...

Vaxtilə yaxşı mütəxəssis kimi qəbul edilən Hektor Kuperə həm də bəxtsiz məşqçi deyirdilər. Çalışdığı illərdə alnına çempionluq yazılmamışdı, vəssalam. Kuperin sayəsində "Valensiya" iki dəfə ÇL-in finalına yüksələ bildi. Əvvəlcə "Real" üstün oldu, növbəti dəfə də "Bavariya". "Malyorka"nı da UEFA kubokunun finalına çatdıran Kuperdən bəxt son görüşdə üz döndərdi. Sonradan Kuper "İnter"ə rəhbərlik etdi. İtaliyada ilk mövsümünü əla keçirən Kuper yalnız son turda çempionluğu əldən verdi "Yuventus"a. Növbəti mövsümdə "İnter" və "Milan" uzun müddət şərikli lider idilər. Yenə də son turlarda Kuper rəqabətə tab gətirmədi - "Milan" çempion oldu. Artıq azarkeşlər də Kuperin bəxtsizliyinə inanmağa başladılar. Belə ki, ən son anlarda bəxt Kuperdən üz döndərir və o, məqsədinə çata bilmirdi. Yeri gəlmişkən, mənim də rəğbət bəslədiyim argentinalı məşqçi sərtliyi, ciddiliyi, nizam-intizamı sevməsi ilə həmişə seçilirdi. Hansı klubda işləyibsə, tələbkar Kuper intizamı ön plana çəkib. Hətta sakit təbiətli braziliyalı Ronaldo Kuperin qaydalar rejiminə dözməyərək, tezliklə italyan klubundan "Real"a keçdi. Kristian Vyeri və Di Byacco da tələbkarlığın sərtiliyi səbəbindən baş məşqçi ilə yola getmirdilər. Ona görə onlar da arabir ehtiyatda qalırdılar. Kuperə görə hətta xırda məsələ belə yalnız icazə prinsipləri əsasında baş tutmalı idi. Özünəməxsus Kuper eyni zamanda Krespodan və Əmrədən razı idi. Bütün bu müsbət mütəxəssis keyfiyyətlərinə baxmayaraq Kuper alnına yazılmayan çempionluq xoşbəxtliyinə heç vaxt çata bilmədi.



## "Bir çox məsələlər məşqçinin iradəsindən, istəyindən asılı olmur"

Bəxt və bəxtsizlikdən söhbət düşmüşkən total oyun" tərzini futbola gətirən "uçan hollandlar"ı yada salmaq yerinə düşər. Həlledici görüşlərdə bəxtin məhz son anlarda hollandlardan üz döndərməsini yaşlı azarkeşlər yəqin ki, xatırlayırlar.

Hər bir insanın həyatında xoş və çətin günlər olur. Futbol dünyasının içində olan baş məşqçi də belədir. Zirvələrə yüksəlmək, eniş-yoxuş bir-birini əvəz edə bilər. Bu, artıq təkcə məşqçinin öz işinin öhdəsindən gəlmək bacarığından asılı deyil. Burada qismət, bəxt, ətraf, şərait və digər amillər də nəzərə alınmalıdır.

Bəzi hallarda kluba gətirilən təcrübəli, tanınmış məşqçi ümidləri doğrultmur. Komandanın oyununda böhran yaranır və məşqçi bu vəziyyətdən çıxa bilmir. Bəzən məşqçi ilə oyunçular arasında psixoloji əngəllər baş verir. Məşqçi bu səbəbləri aradan qaldıra bilmədikdə, istefa verir. Göründüyü kimi, bir çox məsələlər məşqçinin iradəsindən, istəyindən asılı olmur.

Vaxtilə "Skuadra adzura"nın baş məşqçisi olmuş Çezare Prandelli 2016-cı ilin son aylarında çətin vəziyyətə düşmüş "Valensiya"nın sükanı arxasına gətirildi. Lakin baş məşqçi postunda təcrübəli mütəxəssisin işi alınmadı. "Yarasalar"a kömək edə bilmədiyindən çox keçmədi ki, klubdan ayrıldı.

Bəzən ilk baxışda klubda hər şey qaydasında olduğu kimi görünür. Amma uğursuz nəticələr bir-birini əvəz edir. Məncə, belə hallarda obyektiv, subyektiv səbəblər axtarılsa da, sadəcə fortuna komandadan, deməli, həm də baş məşqçidən üz döndərir. Məsələn, Valverdenin və ondan sonra gələn məşqçilərin "Barselona"da bəxtləri gətirmədi. Hansı klublarda işləməsindən asılı olmayaraq yaxşı mütəxəssis kimi özünü çoxdan təsdiq etmiş Emeri arabir uğursuzluğa düçar olur.

Bəxtli məşqçilər də var. Məsələn, Klopp, Semeone, Tuxel. Kimin baş məşqçi olmasından asılı olmayaraq "Real" ümumiyyətlə, bəxtli komandalardan sayılır. "Ayağı düşərli oldu, yaxud olmadı" deyimini də unutmaq olmaz. "Çelsi"də əla oyun göstərən Eden Azar "Real"a transfer olunduqdan sonra bəxt sanki ondan üz döndərib.

Ümumiyyətlə, məşhur baş məşqçinin, elə futbol ulduzunun da karyerasında digər insanların həyatında olduğu kimi "qara zolaqlar" müşahidə etmək mümkündür.

Bir də görürsən komanda sadəcə olaraq uğurlu mövsüm yaşayır. Məşqçinin rolunu elə də şişirtmək düzgün deyildir. Məşqçi ardıcıl uğurlar əldə edən kimi onun ətrafında az qala mif yaradılır. Bu da sonradan mənfi nəticələr verməyə başlayır.

## "Futbolçulara verilən oyun xasiyyətnaməsi"

Futbol təsadüflərlə doludur. Ona görə əbəs yerə demirlər ki, futbol həm də təsadüflərdən qurulur. Bu il ÇL-in qrup mərhələsində "Real" heç kimin gözləmədiyi halda öz meydanında Moldavanın "Şerif" komandasına uduzdu. Əlbəttə, bu, sırf təsadüf idi. Belə ki, Madrid klubu rəqibini sadəcə qiymətləndirməmişdi. Yaxud, Yunanıstanın Avropa çempionu olması tam təsadüf nəticəsində baş vermişdi.

Güclü komandaların oyunlarında cüzi bir səhv, yaxud təsadüfi qol nəticəni müəyyən edir. Heç-heçə nəzərə alınmasa, iki komandadan biri meydandan məğlub ayrılır. Gücü təxminən eyni olan super komandaların prinsipial derbi qarşılaşmalarında təbii ki, qalib gəlmək istəyi daha çox nəzərə çarpır. Ancaq buna baxmayaraq tərəflərdən birinin qalib gəlməyini Tanrı istəmirsə, onda oyun heç-heçə başa çatır. Belə oyunlarda daha çox kuryozlar görürük. Məsələn, super ulduz penaltini qaçırır, qapıçılar adi vəziyyətlərdə bağışlanmaz səhvlərə yol verirlər, kobud hərəkətlər, gözlənilməz qırmızı kartlar yadda qalır və sairə. Əslində bütün bu epizodların necə baş verdiyini heç futbolçuların özləri də anlamırlar. Bir qayda olaraq oyun ərzində əldə etdikləri şansları dəyərləndirən komanda qalib gəlir. Şans da ki, hər dəfə və ya tez-tez ələ düşmür. Gərək, şansdan da istifadə etməyi bacarasan. Bax, burada yenə də bəxt və təsadüf amilləri gündəmə gəlir. Yəni, söhbət qələbə şansının kimin tərəfində olmasından gedir. Başqa sözlə, bəxt kimin üzünə gülürsə, həmin komanda da qalib gəlir. Əlbəttə, belə hallarda da səbəblər axtaran ekspertlər, mütəxəssislər kritik situasiyaları, oyunçuların fiziki hazırlığını, psixoloji dayanıqlığını, ustalıq keyfiyyətlərini və sair xüsusiyyətləri qabartmağa çalışırlar. Bəzən deyirlər ki, ayrı-ayrı futbolçular polad əsəblərə və güclü xarakterə fərdi ustalıq səviyyəsinə malik olduqlarından həlledici anlarda digərlərini üstələyirlər. Bu cür yanaşmanın özü də nisbidir. Uğurun gətirməsi amilinə üstünlük verən bəzi mütəxəssislər qeyd edirlər ki, bütün bunlar əslində futbolçulara verilən oyun xasiyyətnaməsidir. Bir də görürsən favorit hesab olunan komanda görüşdən məğlub ayrılır. Güvənilən oyunçu ümidləri doğrultmur. Bəzən də nəticə oyuna görə olmur. Oyun ərzində hücum edən komanda qalib gələ bilmir, hətta məğlubiyyətə düçar olur. Məsələn, ötən mövsümün və bu ilin "Barselona"sı. Yaxşı müdafiə olunan komanda isə uğur qazanır. Bəzi hallarda məşqçi, komanda oyunun sonlarına yaxın risk edir və bu addım, riskli gediş təsadüfən uğur gətirir. Amma əksinə də olur. Hər bir halda yenə də bəxt və təsadüf anlamına gəldik çıxdıq.



Gərgin keçən oyunlarda hərdən az qala izahı mümkün olmayan məqamlarlada rastlaşmalı oluruq. Elə həlledici anlar da olur ki, sanki futbolçunun ayağı tutulur. Fikrimcə, samballı məşqçi mətbuat konfransında, futbolçu isə matç bitəndən sonra meydanın kənarında müsahibə zamanı deyirsə ki, "bu gün xoşbəxtlik, bəxt bizim tərəfimizdə oldu və biz qalib gəldik"- daha düzgün və məntiqli səslənir. Axı, dediklərini idman xoşbəxtliyi və bəxt uğuru rəqib komandanın da tərəfində ola bilərdi.

Bu yaxınlarda dünya çempionatının seçmə qrup mərhələsində Portuqaliya Serbiya ilə öz meydanında son oyununda əlavə olunmuş dəqiqələrdə gözlənilmədən qapısından qol buraxdı. Bu isə o demək idi ki, Portuqaliya indi pley-offda mübarizə aparmalı olacaq. İndi siz deyin: bu bəxtsizlik idi, yoxsa təsadüf? Hətta oyundan sonra qazonda oturan Ronaldu göz yaşlarını saxlaya bilmədi. Elə həmin gün məlum oldu ki, son Avropa çempionu İtaliya da dünya çempionatına birbaşa vəsiqə qazana bilmədi və bu yığma da bəxtini pley-offda sınayacaq. Prosesin sonrakı gedişatı da hər iki ölkənin yığması üçün heç də ürəkaçan olmadı. Belə ki, püşkün "hökmünə" görə son iki Avropa çempionu olmuş bu ölkələrin yığma komandaları yeganə vəsiqəni əldə etmək üçün qarşı-qarşıya gələcəklər. Püşkün nəticəsi azarkeşlərin də əhvalını korladı. Təsadüf və yaxud bəxtsizlik ucbatından iki nəhəng futbol ölkəsindən biri Qətərə yollanmayacaq. Nə qədər acı olsa da, bu- realdır və dəqiqdir. Bəzən taleyin bax belə qəfil, kəskin dönəmi də olur. Qeyd etmək yerinə düşər ki, İtaliya 2018-ci ildə dünya çempionatına düşə bilməmişdi.

Həm bəxtsizlik, həm də məğlubiyyətə səbəb olan təsadüfi epizodlar qanqaraldıcı təsir bağışlayır. Elə azarkeşlər var ki, belə hallara görə, necə deyərlər, tüstüsü başından çıxır. Çoxları da içəridən yanır. Eləsi də olur ki, qəzəbi başdan aşır.



Göz yaşlarını saxlamayanlara da rast gəlinir. Belə hallarda ürəyi çırpınmayan azarkeş təsəvvür etmirəm. Elə anlar da olur ki, obrazlı desək, azarkeşin barmağını kəssən, xəbəri olmayacaq. Bir sözlə, bəxtsizlik və amansız təsadüflər ucbatından baxır, kim hansı hissləri keçirir. Axı, fanatlar komanda ilə nəfəs alırlar, komanda ilə yaşayırlar...

Futbol əslində həmişə macəralarla dolu olur. Bir də görürsən oyun macəraçılıq xüsusiyyətləri kəsb edir sanki. Macəra olan yerdə də vəziyyət elə gətirir ki, əksər hallarda həlledici anlar ya təsadüflər, ya da bəxtsizlik üzərində qurulur. Lakin hətta bu cür təsadüflər, yaxud bəxtin gətirməsi də nəticə etibarı ilə bir fəlsəfi məntiqə söykənir. Yəni, məsələn, "Sumqayıt", "Keşlə" hətta təsadüf nəticəsində də "Liverpul"u, "Bavariya"nı uda bilməz. Bu proqnozu həm futbolun məntiqi tərəfi təsdiqləyir, həm də müqayisəli təhlili. Başqa sözlə, xoş təsadüflər də, bəxtin möcüzəli tərzdə gətirməsi də hardasa müəyyən bir hüdudlar daxilində baş verə bilər. Belə bir məşhur deyim var: "Bəxtsiz uğur qazanılmır. Amma hərçənd ki, güclü olanın bəxtinin gətirməsini də biz bilirik". Bu fikirlə bağlı isə əlavə şərhə ehtiyac duymuram. Təbii ki, elə hər dəfə uğursuzluq üz verdikdə bəxtsizlikdən şikayətlənmək yanlış yanaşma olardı. Ədalətli nəticənin komandaların səviyyəsinə uyğun olması da bir qayda olaraq əsasən göz qabağında olur.

Mən futbol oyunlarının əksəriyyətini təkcə adi azarkeş kimi izləmirəm. Oyunlara baxa-baxa incəlikləri saf-çürük edir, diqqəti çəkən analitik məqamlara mütəxəssis nöqteyi-nəzərindən yanaşır, ən başlıcası isə qənaətlərim anlamaq prinsiplərinə söykənir. Hətta elə təqvim günləri olur ki, bəzi futbol dramlarını, necə deyərlər, iliklərimə qədər yaşayıram. Və obyektivliyi itirməmək şərti ilə əksər hallarda yenə də bəxt, bəxtsizlik, təsadüflər anlayışlarını ön plana gətirirəm.

*(ardı var)*

# FUTBOL

## “Qarabağ” liderliyini bir qədər də möhkəmləndirdi

Futbol üzrə Azərbaycan Premyer Liqasında XIV turun oyunları keçirilib. İlin sonuncu turunun ilk qarşılaşması Qəbələdə keçirilib. Şəhərin eyniadlı komandası “Neftçi”ni qəbul edib. Matça fəal başlayan meydan sahiblərinin hücumçusu Rafael Utziq 28-ci dəqiqədə hesabı açıb. Görüşün 39-cu dəqiqəsində paytaxt təmsilçisinin futbolçusu Emin Mahmudov hesabı bərabərləşdirib. Oyun bu hesabla da başa çatıb -1:1.

Bu oyundan sonra “Qəbələ” 26 xalla turnir cədvəlində ikinci, “Neftçi” isə 22 xalla üçüncüdür.

Günün ikinci oyununda “Sumqayıt” klubu “Keşlə”ni qəbul edib. “Gənclik şəhəri” təmsilçisi “Kapital Bank Arena”da təşkil olunan oyunda paytaxt təmsilçisinə məğlub olub - 3:1. Bakı klubunun heyətində qolları 37-ci dəqiqədə Pərviz Azadov, 47-ci dəqiqədə Rəhman Hacıyev və 80-ci dəqiqədə penaltidən Felipe Santos vurub. Meydan sahiblərindən isə 84-cü dəqiqədə Cəmaləddin Xocaniyazov fərqlənib. Bu nəticədən sonra xallarını 14-ə çatdıran “Keşlə” 6-cı pilləyə yüksəlib. 12 xalı olan “Sumqayıt” isə 7-ci sıraya geriləyib.

Turun növbəti oyununda “Sabah” klubu səfərdə “Səbail”lə qarşılaşıb. “ASCO Arena”da keçirilmiş görüş “Sabah”ın 3:0 hesablı qələbəsi ilə başa çatıb. Qonaqların heyətində qolları 33-cü dəqiqədə Coy-Lens Mikels, 46-cı dəqiqədə Ceyhun Nuriyev və əsas vaxtın sonuna əlavə olunmuş 4-cü dəqiqədə Xuan Kamara vurub.



Bu qələbədən sonra xallarını 17-yə çatdıran “Sabah” ili beşinci pillədə başa vurub. On xalı olan “Səbail” isə sonuncudur.

Tura “Qarabağ” - “Zirə” matçı ilə yekun vurulub. “Azersun Arena”dakı qarşılaşma meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Ağdam klubunun heyətində hər iki qolu Musa Qurbanlı vurub. On doqquz yaşlı hücumçu görüşün 6-cı və 53-cü dəqiqələrində fərqlənərək, komandasına üç xal qazandırıb.

Bu nəticədən sonra xallarını 33-ə çatdıran “Qarabağ” ən yaxın izləyicisi “Qəbələ”ni 7 xal qabaqlayaraq turnir cədvəlinin zirvəsində möhkəmlənib. İyirmi iki xala malik “Zirə” isə “Neftçi” ilə birlikdə üçüncü və dördüncü yerləri bölüşdürür.

## AFFA-nın Klublar Komitəsinin növbəti iclası keçirilib

Bakı Olimpiya Stadionunda AFFA-nın Klublar Komitəsinin növbəti iclası keçirilib. İclasda AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, AFFA-nın texniki direktoru Cahangir Həsənzadə, Uşaq və gənclər üzrə yarışların təşkili şöbəsinin müdiri Yusif Vəliyev, Peşəkar Futbol Liqasının texniki idman şöbəsinin müdiri Elgiz Abbasov, PFL-in Mətbuat və ictimaiyyətlə əlaqələr departamentinin rəisi Aslan Şahgəldiyev və Azərbaycan Premyer Liqasında mübarizə aparan klubların nümayəndələri iştirak ediblər.



E.Məmmədov çıxış edərək iclas iştirakçılarını salamlayıb, UEFA Avropa Konfrans Liqasında növbəti mərhələyə yüksəlməsi münasibətilə “Qarabağ” klubunu bir daha təbrik edib, pley-off mərhələsinin oyunlarında təmsilçimizə uğurlar arzulayıb.

İcraçı vitse-prezident klub nümayəndələrinin diqqətinə çatdırıb ki, qarşıdakı mövsümdən etibarən qadın futboluna diqqəti daha da artırmaq vacibdir, çünki UEFA bu sahəyə lisenziyalaşdırma prosesində mütləq meyarlardan biri kimi yanaşmağa başlayacaq. O bildirib ki, uşaq futbolu, klubların nəzdindəki akademiyaların fəaliyyəti klublarımız üçün prioritet istiqamətlərdən biri olmalıdır. AFFA rəsmisi klubları sosial layihələrdə daha fəal olmağa, ildə bir neçə dəfə müxtəlif bölgələrdə futbolun təbliği və kütləviləşməsi məqsədi daşıyan layihə təkliflərini AFFA-ya təqdim etməyə səsləyib və qeyd edib ki, bu səpkili layihə təklifləri arasında ən maraqlıları seçiləcək və icrası AFFA tərəfindən maliyyələşdiriləcək.

E.Məmmədov 2022-ci ildə AFFA ilə Türkiyənin “Misli” şirkəti arasında əməkdaşlıq müqaviləsinin imzalanacağını, bu müqavilənin ümumilikdə Azərbaycan futbolu və təbii ki, klublarımız üçün maliyyə məsələləri baxımından faydalı olacağı barədə məlumat verib.

Klublar Komitəsinin iclası gündəlikdə olan məsələlərin müzakirəsi ilə davam edib.

## Şamaxıda futbol məktəbi fəaliyyətə başladı

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov Şamaxı şəhər stadionunda



AFFA-nın təsis etdiyi futbol məktəbinin məşqini izləyib. Məktəbin koordinatoru Vəli Qasımov burada hazırlıq keçən uşaqlar və seleksiya prosesi barədə məlumat verib.

Qeyd edək ki, Vəli Qasımovla yanaşı, məktəbdə Şamaxını təmsil edən daha üç nəfər məşqçi fəaliyyət göstərir.

## Yığmamızın Millətlər Liqasındakı rəqibləri müəyyənləşdi

***Futbol üzrə UEFA Millətlər Liqasında 2022-2023-cü illər mövsümünün püşkatma mərasimi keçirilib. İsveçrənin Nyon şəhərində keçirilən və COVID-19 pandemiyası ilə əlaqədar onlayn formatda təşkil olunan tədbirdə qrupların tərkibi müəyyənləşib. Püşkatma nəticəsində Azərbaycan yığmasının da rəqiblərinin adına aydınlıq gəlib. C Liqasında yer alan millimiz Slovakiya, Belarus və Qazaxıstan-Moldova cütünün qalibi ilə birlikdə 3-cü qrupda mübarizə aparacaq.***




Millimiz iyunun 3-də Qazaxıstan/Moldova cütünün qalibi ilə səfərdə üz-üzə gələcək. Üç gün sonra millimiz Belarusun qonağı olacaq, iyunun 10-da isə Slovakiya seçməsini qəbul edəcək. İyunun 13-də Azərbaycan - Belarus, sentyabrın 22-də isə Slovakiya - Azərbaycan oyunları təşkil olunacaq. Sentyabrın 25-də Azərbaycan Qazaxıstan/Moldova cütünün qalibini qəbul edəcək.

Qeyd edək ki, UEFA Millətlər Liqasında yeni mövsümə 2022-ci il iyunun 2-də start veriləcək.

**A Liqası**

*1-ci qrup*

Fransa
Danimarka
Xorvatiya
Avstriya

*2-ci qrup*

İspaniya
Portuqaliya
İsveçrə
Çexiya

*3-cü qrup*

İtaliya
Almaniya
İngiltərə
Macarıstan

*4-cü qrup*

Belçika
Niderland
Polşa
Uels

**B Liqası**

*1-ci qrup*

Ukrayna
Şotlandiya
İrlandiya
Ermənistan

*2-ci qrup*

İslandiya
Rusiya
İsrail
Albaniya

*3-cü qrup*

Bosniya və Herseqovina
Finlandiya
Rumıniya
Monteneqro

*4-cü qrup*

İsveç
Norveç
Serbiya
Sloveniya

**C Liqası**

*1-ci qrup*

Türkiyə
Lüksemburq
Litva
Farer adaları

*2-ci qrup*

Şimali İrlandiya
Yunanıstan
Kosovo
Kipr - Estoniya cütünün qalibi

*3-cü qrup*

Slovakiya
Belarus
Azərbaycan
Qazaxıstan - Moldova cütünün qalibi

*4-cü qrup*

Bolqarıstan
Şimali Makedoniya
Gürcüstan
Cəbəllütariq

**D Liqası**

*1-ci qrup*

Andorra
Latviya
Qazaxıstan - Moldova cütünün məğlubu
Lixtenşteyn

*2-ci qrup*

San-Marino
Kipr - Estoniya cütünün məğlubu
Malta

## Belarus-Azərbaycan oyunu neytral ölkədə keçirilə bilər

Futbol üzrə UEFA Millətlər Liqasında Azərbaycan milli komandası ilə eyni qrupda yer alan Belarus yığmasının ev oyunları neytral ölkədə keçirilə bilər. Buna səbəb Belarusda vəziyyətin qaydasında olmamasıdır. Bu barədə UEFA prezidenti Aleksander Çeferin məlumat verib.

Qurum rəsmisi ölkədəki situasiyanı izləməkdə davam edəcəklərini bildirib: “Yaxın vaxtlarda orada turnirlər olmayacaq. Qadın futbolçular arasında 2025-ci il Avropa çempionatının harada olacağına zamanı yetişəndə qərar verəcəyik. İzləyir və bilirik ki, Belarusda vəziyyət yaxşı deyil”.

İyunda UEFA öz turnirlərinin Belarusda təşkilindən imtina edib. Bu, Avropa İttifaqının “Ryanair”ə məxsus təyyarəsi ilə bağlı insident üzündən etirazlar fonunda baş verib. Qitə futbol qurumu 2021-ci ildə bu ölkədə heç bir yarışın olmayacağını açıqlayıb. Nəticədə Belarus yığması 2022-ci il dünya çempionatının seçmə mərhələsindəki rəqiblərini Rusiyanın Kazan şəhərində qəbul edib.

## İsmayıllıda yeni meydança istifadəyə verilib

AFFA-nın icraçı vitse-prezident Elxan Məmmədov İsmayıllıda olub. Onu səfər zamanı futbol veteranı Vəli Qasımov müşayiət edib. E.Məmmədov İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırovla birlikdə rayon ərazisində AFFA tərəfindən inşa edilən süni örtüklü meydançanın açılışında iştirak edib.

İsmayıllını təmsil edən müxtəlif uşaq komandalarının üzvlərinə AFFA tərəfindən idman geyimləri, çanta, top hədiyyə olunub.

E.Məmmədov, N.Bağırov və V.Qasımov uşaqlarla birgə futbol oynayıb.





Dünya idmanı

# Pilotu qəsrdə cəngavər elan etdilər

Formula 1-də çıxış edən "Mercedes" komandasının pilotu Lüis Hemilton mükafatlandırılıb. 36 yaşlı sürücü Vindzor qəsrindəki mərasimdə cəngavər rütbəsi alıb.

Yeddiqat dünya çempionu noyabrda "Britaniya imperiyasının cəngavəri" adına layiq görülmüşdü.

Qeyd edək ki, Lüis Hemilton bu il çempionluq titulunu qoruya bilməyib. O, Abu-Dabi Qran-prisində "Red Bull" komandasının pilotu Maks Ferstappenə uduzub.



# NBA tarixində yeni rekord

Milli Basketbol Assosiasiyasında (NBA) tarixi rekord qeydə alınıb. Rekorda "Qolden Steyt" komandasının oyunçusu Stefen Karri imza atıb. 33 yaşlı idmançı buna "Nyu-York Siti"ni 105:96 hesabı ilə məğlub etdikləri qarşılaşmada nail olub. S.Karrinin 3 xallıq atışlarından 5-i dəqiq alınıb. O, karyerasında 2977 dəfə qövsdən kənarda fərqlənməyi bacarıb. Basketbolçu "Boston" və "Mayami"də çıxış etmiş Rey Allenin (2973) rekordunu arxada qoyub. Qeyd edək ki, Stefen Karri üç dəfə NBA çempionu olub.





**Üfüqi**

**2.** Elitar və Olimpiya idman növü. **3.** "Betis"in fransalı futbolçusu Nabil. **4.** İsveçli futbol əfsanəsi. **6.** XVI Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. **7.** Küncdən vurulan zərbə. **12.** İdman tədbirləri arasında ən nəhəng yarış. **13.** Avropa klubları arasında keçirilən keçmiş futbol turniri. **14.** "Ayaks" və Kot-d İvuar yığmasının futbolçusu.

**Şaquli**

**1.** Sidney-2000 Yay Olimpiya Oyunlarının qalibi olan qadın idmançımız. **5.** Bilyardın yarış növü. **7.** UEFA bayrağı altında keçirilən yeni klub turniri. **8.** Yığma komandamızın futbolçusu Mahir Emrelinin çıxış etdiyi Polşa klubu. 9. İspaniyanın III liqasında çıxış edən Deportivo təmsilçisi. **10.** NBA-nın müntəzəm çempionatında çıxış edən komanda "... Maveriks". **11.** Tələbələrin kütləvi idman tədbiri. **15.** A seriyasında mübarizə aparan İtaliya klubu. **16.** İran çempionatında Cənubi Azərbaycan təmsilçisi.

# Serxio Aqüero karyerasını başa vurdu

"Barselona" futbol klubunun argentinalı hücumçusu Serxio Aqüero səhhətindəki problemlərlə əlaqədar karyerasını başa vurduğunu elan edib. Bu barədə 33 yaşlı hücumçu keçirdiyi mətbuat konfransında açıqlama verib. Təcrübəli forvard ürəyindəki problemə görə bu addımı atmağa məcbur olduğunu bildirib.



Qeyd edək ki, Serxio Aqüero La Liqanın XII turunda "Alaves"ə qarşı oyundan (1:1) sonra xəstəxanaya yerləşdirilib. Matçın gedişində nəfəs darlığından əziyyət çəkən futbolçu 41-ci dəqiqədə Filippe Koutinyo ilə əvəzlənib. Həkimlərin müşayiəti ilə meydanı tərk edən futbolçu kardioloji müayinədən keçib. Hücumçuya aritmiya (ürəyin normal ritminin pozulması) diaqnozu qoyulub.

S.Aqüero karyerası ərzində ölkəsinin "İndependiente", İspaniyanın "Atletiko Madrid" və İngiltərənin "Mançester Siti" klublarında da çıxış edib.

# İbrahimoviç Roma Papası ilə görüşdü

Roma Papası Frantsisk İtaliyanın "Milan" klubunun hücumçusu Zlatan İbrahimoviçlə görüşüb. Bu barədə 40 yaşlı isveçli hücumçu özünün tvitter səhifəsində paylaşım edib. Görüş xüsusi auditoriyada baş tutub.

Qeyd edək ki, Zlatan İbrahimoviç ötən ildən "Milan"da çıxış edir.

# Çempion tərəziyə qayıtmadı

Avstraliyalı döyüşçü Castin Tafa Mütləq Döyüş Çempionatı (UFC) tarixində çəki dərəcəsində məğlub olan ilk ağır çəkili idmançı olub. C.Tafa Las-Veqasda keçiriləcək "UFC Fight Night 199"da amerikalı Harri Hansakerlə qarşılaşmalı idi. Avstraliyalının çəkisi 121,1 kq olub ki, bu da kateqoriya limitindən 450 qram çoxdur. UFC tarixində ilk dəfə çəki ölçmədən sonra döyüş ləğv edilib.

C.Tafa ilk cəhddən sonra tərəziyə qayıtmayıb. 28 yaşlı oyunçunun hesabında 4 qələbə, 3 məğlubiyyət var. O, 2019-cu ildən UFC-də çıxış edir.

olimpnews.az – sizin saytınız




Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19